# Azərbaycan Qırğızıstanda beynəlxalq mədəniyyət və musiqi festivalında təmsil olunur

**Qırğızıstanda "Ruh Sanat" adlı ənənəvi beynəlxalq mədəniyyət və musiqi festivalının açılışı olub.**

Genişmiqyaslı beynəlxalq tədbir Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi, Qırğızıstan Respublikası Nazirlər Kabineti, bu ölkənin Mədəniyyət, İnformasiya və Gənclər Siyasəti Nazirliyi, Qırğız Respublikası Milli Elmlər Akademiyasının Ənənəvi Mədəniyyət və İncəsənət Araşdırma Mərkəzi, "Manas" Milli Teatrının təşkilatçılığı ilə keçirilir.

Tədbir Çolpon-Ata şəhərində (İssık-Kul bölgəsi) keçirilir və 30-dan çox ölkədən mədəniyyət və incəsənət xadimlərini bir araya gətirir. Festivalın məqsədi dünyanın qeyri-maddi mədəni irsinin zənginliyini nümayiş etdirmək, beynəlxalq mədəni dialoqu gücləndirmək və orijinal




ənənələrin qorunub saxlanmasını təşviq etməkdir.

Beynəlxalq müsabiqədə Yaponiya, Hindistan, Macarıstan, Qvineya və başqa ölkələrdən 9 solist və 12 yaradıcı qrup daxil olmaqla 84 ifaçı iştirak edir. Qırğızıstanı 4 solo ifaçı və 4 ansambl təmsil edir.

Azərbaycan da bu festivalda təmsil olunur. Təmsilçilərimiz "Cəngi - rəqs janrında qəhrəmanlıq təcəssümü" və "Azərbaycan və Altayın ənənəvi musiqisində tarixi-musiqi paralelləri" adlı yüksək bədii və konseptual proqramlar təqdim edəcəklər.

Festivalın proqramı çərçivəsində həmçinin ICESCO-nun Bakıdakı regional ofisinin direktor müavini Məryəm Qafarzadənin tematik təqdimatı olacaq. O, məruzəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının cari fəaliyyətindən danışacaq, həmçinin qeyri-maddi mədəni irsin qorunması kontekstində mədəniyyətlərarası əməkdaşlığın vacibliyini vurğulayacaq.

Müsabiqə iştirakçıları avqustun ilk iki günündə çıxış edəcəklər, avqustun 3-də isə qaliblərin qala-konserti və bağlanış mərasimi olacaq. İştirakçıların məharətini ənənəvi incəsənət sahəsində yeddi beynəlxalq ekspertdən ibarət münsiflər heyəti qiymətləndirəcək.

Qaliblər fəxri fərman və pul mükafatları ilə təltif olunacaq.

Azərbaycan.- 2025.- 2 avqust (№ 159).- S.11.